*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2025, №1* *ISSN: 2664-5432*
*Səhifə: 57-62*
*https://doi.org/10.59849/2664-5432.2025.1.57*

**Lalə QURBANOVA***

# SÖZ YARADICILIĞI

**XÜLASƏ**

İngilis dilində yeni leksik vahidlərin yaranması və bu sözlərin dünyada sürətlə yayılması prosesinin tədqiqi bu gün dilçilikdə ən aktual problemlərdən biridir. Dildə yaranan yeni sözlərin dinamikası söz yaradıcılığı barədə olan fikirlərin mübahisəsini artırır. Dildə yeni yaranan leksik vahidlərin innovativ inkişafı sözyaratma üsullarına da təsir edir. Dildə söz yaradıcılığının tarixinə nəzər saldıqda tarix boyu lüğət tərkibinin innovasiyasına bir çox amillərin təkan verdiyini görürük və bu amillərdən biri sosial faktorlardır. Məqalənin qarşısında duran əsas məqsəd leksik innovasiyaya linqvo-sosial amillərin təsiinin təhlil edilməsi və yaranan yeni sözlərin dilə uyğunlaşma mexanizmlərini üzə çıxarmaqdır. Dillərarası əlaqə, multikultural inkişaf, dünyada baş verən elmi-tərəqqi, sosial-mədəni, siyasi-iqtisadi dəyişikliklər bir başa dilin inkişafına da təsir edir. Hər bir sahənin özünəməxsus dili vardır və belə inkişaf prosesində bu sahələrin də dilində dəyişiklik baş verir. Son zamanlar dildə leksik innovasiyanın inkişafında ən çox nəzərə çarpan səbəb, davamlı olaraq İnformasiya Kommunikasiya Texnologiyalarının (İKT) yüksək səviyyədə inkişaf etməsidir. Son illərdə ingilis dilinin leksis sistemində baş verən dəyişiklik məhz dünyada inkişaf edən sahələrlə bağlıdır. Məqalədə dildə leksik innovasiyalar ingilis dili materialları əsasında müşahidə-təsviri metodlardan istifadə edilərək təhlil edilir.

***Açar sözlər****: leksik innovasiyalar, söz yaradıcılığı, alınmalar, söz yaradan üsullar.*

Söz insan həyatında əsas rol oynayan, dilin əsasını təşkil edən vahidlərdən biri olub, insanın özünü və dünyanı dərk etmə xüsusiyyətlərinə malikdir. Söz insanlıqla bərabər inkişaf tarixinə malikdir, yəni söz bir işarə olub insan yarandığı gündən bu günə qədər inkişaf etmişdir. Söz işarə olub nəyisə çatdırmağa xidmət edən dil elementidir. İnsan nitqi dilin müəyyən vahidləri sayəsində yaranır, bu vahidlərin əsasını təşkil edən sözdür. İnsan fikri onun nitqində əks olunur və insana xas bu ikili-fikir və nitq fəaliyyəti təfəkkürün məhsuludur. İnsan nitqi müxtəlif tipli söz birliklərindən ibarətdir. Hər bir insan danışdıqda çoxlu sayda sözlərdən istifadə edir və bu sözlər onun yaddaşında toplanaraq uyğun zaman və məkanda istifadə olunur. “Hər hansı bir dildə danışanlar orta hesablamalara görə 45.000-60.000 söz bildiyi təxmin edilmişdir. Bu o deməkdir ki, bu sözlər danışan insanın beynində yerləşmişdir, belə ki, sözlər insanın mental leksikonunda saxlanmaqdadır”[Plag: 2002, s.11]. Fikir baş verən hadisələr nəticəsində formalaşır və o sözlər vasitəsilə ifadə olunur. Yeni hadisələrin baş verməsi və predmətlərin adlandırılması məhz yeni sözün yaranması ilə nəticələnir. Söz və predmet arasında əlaqə təbii bir proses olub dilin inkişafına yol açır və yeni predmet və hadisə yeni söz deməkdir. Söz insan fikrinin işarəsidir, informasiya söz birliyindən ibarət olub, danışanın məqsədini dinləyənə çatdırır. Dilin leksik sisteminin inkişafı məhz cəmiyyətin inkişafı ilə bağlıdır və cəmiyyət inkişaf etdikcə dildə yeni sözlərin yaranma prosesinin də inkişafı sürətlənir. Söz sisteminin inkişafı onun yeni aspektlərdən tədqiqinə imkan yaradır. Dildə yeni sözlərin yaranması və onun sosial aspektdən araşdırılması dilçiliyin qarşısında duran əsas problemlərdən biridir. Ümumiyyətlə, sözün tədqiqi dilçilik sahəsinin daima mərkəzində dayanması məsələnin aktuallığını şərtləndirir.

*AMEA Nəsimi adına Dilçilik İnstitutu, Hind-Avropa dilləri şöbəsi,fil.e.d. dos.,baş elmi işçi.
Email:lala.qedirova@mail.ru

Söz danışanlar üçün digər dil vahidlərindən daha tez tanınan, dərk olunan və ən çox işlənən dil vahididir. Demək olar ki, insanın nitqini gözəlləşdirən və səlis nitqinin sirri məhz leksik vahidlərdir. İnsanın söz bazası nə qədər zəngin olsa onun nitqi də bir o qədər dəyərli olur.

Dildə dil səriştəsinin doğru şəkildə formalaşması üçün əsas söz ehtiyatının yaranması və inkişafıdır. Buna sözün formal və struktur xüsusiyyətlərini öyrənməklə nail olmaq olar.

Sözlər təkcə fikir mübadiləsi və ya kommunikasiya yaratmaq üçün rol oynamır, söz həmçinin insan həyatının və kimliyinin inikası rolunda da yüksək əhəmiyyətə malikdir. L.Vitqenştayn qeyd edir: *“Mənim dünyamın sərhədi sözlərimin sərhədi qədərdir”* [Wittgenstein:1996, s.63]. Söz dilin elə bir vahididir ki, o ikili xüsusiyyətə forma və fikrə işarə edən mənaya malikdir və bu ikili bir-birindən ayrılmaz vəhdət təşkil edir. O. Musayev sözə xas cəhətləri belə izah edir: *“Sözə xas olan digər bir cəhət də ondan ibarətdir ki, o, ikili xüsusiyyətə, təbiətə malikdir: söz həm maddi, həm də qeyri-maddidir. Sözün maddiliyi ondadır ki, onu görmək, eşitmək olur, qeyri-maddiliyi isə onun müəyyən mənaya (həm konkret, həm də mücərrəd) malik olmasıdır. Sözün maddiliyi onun formasında, qeyri-maddiliyi isə onun mənasında təzahür edir, meydana çıxır”* [Musayev: 2018, s.16].

Sözün yaranması və onun inkişaf tarixi barədə müxtəlif yanaşmalar olsa da dilçilikdə bu məsələ hələ də mübahisəli olaraq qalır. Cəmiyyətin inkişafı sözün istifadə sferasını genişləndirir və onun inkişafına imkan yaradır.

Sözyaradıcılığı barədə fikir söyləyən F. Veysəlli onu aşağıdakı kimi təsnif edir: 1.Gerçəkliyə münasibətinə görə: a) konkret sözlər; b) abstrakt sözlər; 2. İşlənmə tezliyinə görə: a) çox işlənən sözlər; b) az işlənən sözlər; 3. İşlək dairəsinə görə: a) ümumişlək sözlər; b) peşə ilə bağlı sözlər; c) sahə (siyasi, iqtisadi, hüquqi və s.) terminləri; 4. Özəl və alınmaya görə: a) dilin öz sözləri; b) alınma sözlər; c) bütöv dilə məxsus sözlər; d) dialekt sözləri; 5. Zamana görə bölgü: a) arxaizmlər; b) anarxizmlər; c) neologizmlər; 6. Üslubi bölgü: a) müstəqim mənalı sözlər; b) məcazi mənada işlənən sözlər; 7. Struktur bölgü: a) sadə sözlər; b) düzəltmə sözlər; c) mürəkkəb sözlər; 8. Birləşmələrdə iştirakına görə: a)sabit birləşmələr; b) sərbəst birləşmələr [Veysəlli: 2011, s.16-17].

F. Veysəllinin söz barədə verdiyi hərtərəfli təsnifi ayrı-ayrılıqda dilçiliyin tədqiqat obyekti olub, cəmiyyət tərəfindən işlədilən dil vahidləridir. Göstərilən bu təsnifatın bütün dil vahidləri dilin lüğət tərkibinin inkişaf etməsində və zənginləşməsində rol oynayır.

E.Koseriu söz yaradıcılığının üç növünü göstərir: 1. Kompozitlər (mürəkkəblər). Burada iki və daha artıq leksem iştirak edir və onlardan biri, bir qayda olaraq, sonuncusu, yaranan yeni sözün hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirir (məs.: to pass+a word → a password); 2. Düzəltmə sözlər. Bu sözlər bir leksemə əsaslanır, sadəcə sözün növünü dəyişir. Düzəltmə sözlər əlavə morfemin köməyi ilə (məs.: small → smaller), eyni zamanda morfemsiz də düzələ bilir (məs.: to play → play); 3. Modifikasiya. Bu sözlər də bir leksemə əsaslanır, lakin morfem əlavə etməklə dəyişikliyə uğrasa da, sözün növü dəyişmir (məs.: hidden ← hide; sweetest ← sweet) və s. [Koseriu: 2006, s.113-114]. Alim söz yaradıcılığında əsasən iki və daha artıq sadə sözün birləşməsindən yaranan mürəkkəb və düzəltmə sözləri geniş izah edir, söz yaradan üsullardan isə morfoloji üsulu əsas göstərir. Alimin fikri ilə razılaşaraq qeyd edək ki, dildə mürəkkəb və düzəltmə sözlərin yaranması leksik sistemdə yeni bir lay açır. Məsələn, sailboat- sail + boat-yelkənli qayıq-yelkən + qayıq; brainstorm- brain+storm-beyin fırtınası- beyin-fırtına və s.

Morfoloji üsula sözyaradıcılığı isə dillərdə ən geniş yayılan üsullardan biridir. Məsələn, son illərdə ingilis dilində ən çox işlədilən sözlərdən *Instagram-instaqram, Email-imeyl, Youtube-yutub, Influence-influens* sözlərinə şəkilçilər artıraraq yeni sözlər yaranır və bu

sözlər dünyada hamı tərəfindən eyni mənada işlənir. Məsələn,

*Instagram - Instagrammable* – instaqram sosial media xidmətində cəlbedici və maraqlı fotoşəkil, video çəkmək və yerləşdirmək; müxtəlif maraqlı və qlobal xəbərlərin paylaşılması.

*Youtube-Youtube**r**- yutub sosial platformasında* geniş istifadə edən, bu platformada videolar yaradan və yükləyən paylaşma xidmətindən istifadə edən şəxs.

*Influence-Influence**r*** - sosial medialardan geniş istifadə edərək reklamla məşğul və geniş kütləyə təsir etmə qabiliyyətinə malik olan şəxs.

*Email – Email**er*** – imeyl göndərən şəxs [https://dictionaryblog.cambridge.org/: https://www.britannica.com/].

C. Laynzın fikrincə "*Bir çox dillərdə ənənəvi olaraq söz yaradıcılığı üçün məhsuldar (sözdüzəldici) qaydalar vardır ki, bu qaydalar da dil istifadəçilərinə leksik baxımdan sadə və əvvəldən mövcud olan ifadələrdən yeni söz-ifadələr yaratmaq imkanı verir*" [Laynz: 2014, s.59]. O, qeyd edir ki, hər bir dildə işlədilən ifadələr iki yerə bölünür: leksemlər və leksemlərdən yaranan mürəkkəb ifadələr. Leksemlər kəmiyyətcə məhdud və sadə ifadələrdir. Mürəkkəb ifadələr isə məlum leksemlərdən yaranır [Laynz: 2014, s.60].

Dilin leksik sisteminin zənginləşməsi sözlərin müxtəlif proseslərdən keçərək yaranması nəticəsində baş verir. Yeni sözlər dildə var olan sözlərin birləşməsindən, başqa dillərdən alınmalar hesabına və söz yaradıcılığında müxtəlif üsullardan istifadə edərək və s. yaranır. Ancaq, qeyd etmək istərdik ki, leksik innovasiyalar son dövrlərdə dillərarası əlaqənin sürətlə inkişafı nəticəsində daha da sürətlənib. Belə ki, elm- tərəqqi və müasir informasiya texnologiyası elə bir inkişaf səviyyəsinə çatıb ki, eyni sözdən dünyada hər kəs istifadə edə bilir. Bu kimi söz inkişafı dillərdə yeni sözlərin işlədilməsinə və müəyyən zamanda sonra dilin leksik sistemində özünə yer tutur. Məsələn,

*Viral (az zaman ərzində məhşur olmaq)*- internet istifadəçisi tərəfindən verilən şəkil, video, məlumat parçasının və s. bir xəbərin sürətlə və geniş şəkildə yayılması.

*Big Data (böyük tarix)*- Çox vaxt biznes fikirlərini təhlil etmək və emal etmək üçün xüsusi alətlər tələb edən çox böyük məlumat dəstləri.

*Deepfake (dərin saxtakarlıq)* –süni intellekt neyron şəbəkələrindən istifadə edərək yaradılan foto, audio və video materialların, səsin sintezi üçün texnologiya.

*Techno stress (texnikadan istifadə zamanı yaranan gərginlik)* – bir insanın yeni texnologiya ilə sıxışdığı zaman yaranan narahatlıq, gərginlik və ya sıxıntıdır.

*Digital Twin (Rəqəmsal əkizi-eynisi)*–real dünya davranışını simulyasiya etmək üçün istifadə edilən fiziki obyektin və ya sistemin virtual surəti [languages.oup.com/research/oxford-english-dictionary/: www.collinsdictionary.com/dictionary/english].

Göstərilən misallar Azərbaycan dilinə tərcümə edilsə də, ancaq dünyada bu sözlər eyni terminlərdən istifadə edilərək işlədilir. Bu söz-terminlər dünyanın dörd bir tərəfində insanlar həm iş və sosial həyatlarında istifadə edirlər. Verilən terminlər ən çox KİV tərəfindən daha geniş yayılmışdır.

Hər bir dilin inkişafı sosiumda baş verən dəyişikliklərlə bağlıdır və leksik innovasiyalar məhz bu mühitdə baş verir. Bu proses bütün dillərdə olduğu kimi ingilis dilində də özünü göstərir və yaranan yeni söz və terminlər sürətlə dildən dilə keçir. Belə ki, ingilis dili dünyada ən dinamik inkişaf edən dillərdən biri hesab olunur və bu da onun müasir dünyada beynəlxalq ünsiyyət dili kimi rol oynamasına şərait yaradır.

İngilis dilinin leksik sistemi və lüğət tərkibi öz "söz bazası" ilə yanaşı başqa dillərdən alınma sözlər vasitəsilə də zənginləşir. İngilis dilinin lüğət tərkibində gedən bu proses dillərarası əlaqələr, dünyada baş verən yeniliklər və yeni elm sahələrinin inkişafı nəticəsində baş verir.

İnnovasiyaları məna dəyişikliyi kimi müəyyən edən Blumfild L. "Qədim yazılarda hər hansı bir formanın məzmunu və ya söyləm kombinasiyaları sözün nə vaxtsa fərqli bir mənada işləndiyini" göstərir. O, dillərarası əlaqələrin söz yaradıcılığında rolunu xüsusi qeyd edir və sözün semantik dəyişikliyini sözün strukturunun təhlili ilə də əlaqələndirir [Blumfild: 2014, s.414].

Beləliklə, dildə sözün innovativliyinə əsaslanaraq qeyd etmək olar ki, yeni leksik vahidlərin yaranmasına bir çox amillər təkan verir: müxtəlifsistemli dillərdən alınma sözlər (dildə alınmalar əsasən elmi-tərəqqinin inkişafı, dil əlaqələri, bir çox sosial faktorlar və s. nəticəsində baş verir); morfoloji yolla yaranan sözlər (affikslər, suffiks, preffiks, birləşmə və konversiya nəticəsində yaranan sözlər və s.); semantik dəyişiklik (sözlər kontekstindən və dilin böyük nitq vahidlərinin tərkibinə keçdikdən sonra semantik baxımdan dəyişir); neologizmlər (yeni hadisələri və predmetləri ifadə etmək üçün yaradılan yeni sözlər) (L.Q.).

İnqo P. sözlərin əsas xüsusiyyətləri ilə bağlı qeyd edir: *"Əgər sözün nə olduğunu müəyyən etmək istəsək ilk növbədə sözü yazılı olaraq orfoqrafik bir vahid kimi düşünə bilərik. Məsələn, söz fasiləsiz hərflərdən və aralarında fasilə və durğu işarəsi qoyulan sətir kimi qiymətləndirilir. Sözlərin xüsusiyyətlərini aşağıdakı kimi ümumiləşdirmək olar:*

*a)sözlər nitq spesifikasiyasının bir hissəsi olan varlıqlardır;*

*b)sözlər sintaktik atomlardır;*

*c)sözlər (adətən) bir əsas vurğuya malikdir;*

*d)sözlər (adətən) bölünməz vahidlərdir* [Plag: 2002, s. 16].

Alim doğru olaraq qeyd edir ki, *sözlər (adətən) bir əsas vurğuya malikdir,* ancaq qeyd etmək lazımdır ki, ingilis dilində söz yaradıcılığı zamanı vurğu yerini və dərəcəsini (ingilis dilində vurğu birinci və ikinci dərəcəli olur) dəyişir. İngilis dilində sözdə və ifadələrdə vurğunun yeri dəyişdikdə məna da dəyişir. İngilis dilində müxtəlif yollarla yaranan sözlərdə iki və daha artıq vurğu olur. Məsələn, morfoloji yolla yaranan mürəkkəb sözlərdə, frazeoloji ifadələrdə bəzən bir və iki əsas vurğu, sözönləri və şəkilçilərlə bağlı olaraq iki əsas və ikinci dərəcəli vurğu da olur. Məsələn, *'ex'president, 'inter'national, 'ultra'modern, in□vesti' gation, 'brain□storm (mür.söz), 'greek 'gift* [/dictionaryblog.cambridge.org/] və s.

İngilis dilində yeni sözün yaranmasında semantik üsulda əsas rol oynayır. Nitq söz və mənanın əlaqələndirilməsi vasitəsi ilə yaranır, yəni dil vahidlərinin forma və mənası arasında simvolik assosiasiyalar yaranır və bu assosiasiyalar danışanların öz düşüncə və niyyətlərini ifadə etməyə imkan verir. Söz insanı idarə etmə xüsusiyyətinə, yəni beyinə təsir etmə xüsusiyyətlərinə malikdir. Söz bir başa koqnisiyadan keçir. Sözün fonoloji və leksik əlaqəsi semantik struktur yaradır. Sözlərin forması kimi onların mənaları və xüsusiyyətləri, işlənmə sahələri də dilin ən qədim inkişaf mərhələlərindən başlayaraq müxtəlif istiqamətlərdə inkişaf edir və dəyişir. Cəmiyyət arasında müxtəlif sosial əlaqə dildə sözlərin leksik-semantik xüsusiyyətlərin dəyişməsində də özünü göstərir. Dilin sosial aləmdə belə inkişafı dünyada ən çox yayılan sözyaradıcılığı amillərdən biri olan dil əlaqələrinin sürətlə inkişafının nəticəsidir.

İngilis dilinin lüğət tərkibinə nəzər yetirdikdə ingilis dili yeni dövründə yeni yaranan sözlər vasitəsilə söz sistemi böyük sürətlə zənginləşmişdir. İngilis dilinin formalaşması müxtəlif mərhələlərdən keçmişdir və bu dilin formalaşmasında dilin tarixinin müxtəlif

dövrlərinin hər birinin xüsusi rolu olmuşdur. Dilin komponentləri içərisində lüğət tərkibi daha çox dəyişir və o daima aktiv bir sahə olaraq qalmaqdadır.

Ümumiyyətlə, ingilis dili müasir dünyada aktual olaraq qalması və onun daha da geniş yayılması və istifadə olunması leksik innovasiya üçün şərait yaradır. Deməli, leksik innovasiya ingilis dilinin inkişafında və bu dilin lüğət tərkibinin zənginləşməsində əsas rol oynayır. Sosiumda baş verən yeniliklər, elm və texnikanın inkişafı leksik innovasiyanın dinamikasını artırır, yeni elmi kəşflərin və ixtiraların ortaya çıxması yeni anlayışların yeni sözlərlə ifadə olunmasına səbəb olur. Yeni sözlərin yaranmasında son zamanlar sosial şəbəkələrin və İnformasiya Kommunikasiya Texnologiyalarının (İKT) sürətlə inkişaf etməsi xüsusi rol oynayır. Məsələn,

*E-reader* - elektron kitabları və oxşar materialları oxumaq üçün nəzərdə tutulmuş elektron əl cihazı

*E-waste* - atılmış elektron məhsullardan (kompüterlər, televizorlar və mobil telefonlar kimi) ibarət tullantılar

*Hashtag* - müşayiət olunan mətni təsnif edən və ya kateqoriyalara ayıran simvolundan əvvəl gələn söz və ya ifadə (məsələn, tvit);

*FaceTime*- görüntülü zəng etmək;

*Intermedia*- gündəlik və gecə-gündüz xəbər lenti hazırlayan, musiqi və video qrafikləri dərc edən, əlaqə məlumat bazasını saxlayan və marketinq tədqiqatları aparan agentlik

*Social listening* - sosial media saytlarından insanların məhsul və ya brend kimi müəyyən bir mövzu haqqında dedikləri ilə bağlı məlumat toplamaq fəaliyyəti

*Virtual being* - insanın fiziki formasını alan və real insanı təqlid edən şəkildə davranmaq üçün süni intellektdən istifadə edən kompüter proqramı [/www.collinsdictionary.com/ dictionary/english].

Dildə yaranan yeni sözlər yeni anlayışların işarəsidir və belə sözlər beynəlxalq səviyyədə istifadə edilir. Yuxarıda qeyd edilən sözlər beynəlxalq terminə çevrilib, məlum bir sahədə yeni anlayışları ifadə edir.

Söz yaradıcılığının dinamikası lüğət tərkibini zənginləşdirən sözlərin zaman-zaman məna dəyişməsinə və yenilənməsinə səbəb olur. Məsələn, əvvəllər ingilis dilində işlənən sözlər bu gün başqa mənada işlədilir: *Crush* –əvvəlcə bir şeyə güclə basmağı təsvir etmək üçün istifadə olunurdu, indi qısa müddətə davam edən güclü sevgi hissini ifadə edir.

Belə ki, hər bir dildə olduğu kimi ingilis dilində də yeni sözlər yaranması və dünyada bu sözlərin sürətlə insanlar arasında yayılması və geniş kütlələr tərəfindən beynəlxalq səviyyədə bu sözlərdən istifadə edilməsi əvvəlki işlək sözləri kölgədə qoyur. Dildə işlədilən yeni sözlər alınmalar, dillərarası əlaqələr və insanların müasir İnformasiya Kommunikasiya Texnologiyalarından istifadəsi nəticəsində baş verir. Dildə söz yaradıcılığının nominasiyası və onun nəticələri insanın idrak fəaliyyətində mühüm rol oynayır.

Söz yaradıcılığı insan dilini təşkil edən simvolik sistemin geniş, vahid konsepsiyasında öz yerini tutur. Dilin mənimsənilməsi ilə onun istifadəsi arasında güclü əlaqə var. Sözlərin daxili quruluşu söz yaradıcılığında yeni sözlərin əmələ gəlməsinə şərait yaradır. Yeni söz danışanın şüurunda qurulan və ya gücləndirilən bəzi fonoloji, semantik və ya simvolik quruluşla müəyyən edilir. Əsas odur ki, linqvistik vahidlər təsadüfən yaranmır və insan şüurunda formalaşdıqdan sonra dil-nitq vahidinə çevrilir. Söz insan beyninin məhsuludur və obyektlərin adlandırılması məhz idrak prosesi vasitəsilə baş verir.

## ƏDƏBİYYAT


1. Blumfild L. Dil. Bakı: Prestij, 2014, 521s
2. Koseriu E. Ümumi dilçiliyə giriş. Almancadan tərcüməsi, "Ön söz" və "Qeydlər" prof. F.Veysəllinindir. Bakı: Mütərcim, 2006, 248 s.
3. Layons C. Linqvistik semantika: Giriş. Bakı, 2014, 389 s.
4. Musayev Oruc İbrahim oğlu, Müasir Azərbaycan və müasir ingilis dillərinin morfologiyası. Bizim büro mətbəəsi, Ankara 2018, 459 s.
5. Veysəlli F.Y.German dilçiliyinə giriş. Bakı: Mütərcim, 2011, 405 s.
6. Ingo Plag Word-formation in English. Cambridge University Press, Series 'Cambridge Textbooks in Linguistics. Draft version of September 27, 2002, 264pp.
7. Wittgenstein, L. Language and Philosophy. / L.Wittgenstein. – The Language Press, Whitewater Wisconsin, – 1996. – 233 pp.
8. https://dictionaryblog.cambridge.org/
9. https://languages.oup.com/research/oxford-english-dictionary/
10. https://www.britannica.com/
11. https://www.collinsdictionary.com/dictionary/english


## WORD CREATION
## SUMMARY


The nomination of word creation in language and its consequences play an important role in human cognitive activity. Word creation takes its place in a broad, unified concept of the symbolic system that makes up human language. There is a strict connection between the acquisition of language and its use. The internal structure of words allows the formation of new words in word creation. A new word is determined by any phonological, semantic or symbolic structure that is established or strengthened in the speaker's mind. The main thing is that language units do not arise randomly and are processed after they are formed in the human mind. The word is a product of the human brain. The naming of objects occurs precisely through the cognitive process.



**Keywords:** *lexical innovations, word creation, borrowings, word-forming methods:*


## СЛОВООБРАЗОВАНИЕ
## РЕЗЮМЕ


Номинация словотворчества в языке и ее последствия играют важную роль в познавательной деятельности человека. Словотворчество занимает свое место в широком, едином понятии символической системы, составляющей человеческий язык. Существует строгая связь между усвоением языка и его использованием. Внутренняя структура слов позволяет образовывать новые слова в словотворчестве. Новое слово определяется какой-либо фонологической, семантической или символической структурой, которая устанавливается или укрепляется в сознании говорящего. Главное, что языковые единицы не возникают случайно и обрабатываются после того, как они сформированы в сознании человека. Слово является продуктом человеческого мозга. Наименование предметов происходит именно посредством когнитивного процесса.



**Ключевые слова:** *лексические инновации, словотворчество, заимствования, способы словообразования.*